UOT: 32
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5032

# AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏR VƏ İDMAN SİYASƏTİNİN SƏMƏRƏLİLİK MEYARLARI

**XƏLİL TOĞRUL OĞLU YUSİFLİ**
*Gəncə Dövlət Universiteti, doktorant*
*Azərbaycan, Gəncə şəhəri, Heydər Əliyev pr. 429*
*E-mail: yusiflixalil1@gmail.com*
*ORCİD İD: 0009-0008-4195-4800*

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasında sosial siyasətin tərkib hissəsi kimi gənclər və idman siyasətinin səmərəlilik meyarları və əsas göstəriciləri araşdırılmışdır. Gənclər və idman siyasətində universal göstərici və indekslərin olmaması səbəbindən, Azərbaycanda bu siyasətin başlıca istiqamətləri və xüsusiyyətlərinə əsaslanaraq gənclərin vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi, təhsil və məşğulluq imkanları, xüsusilə bədən tərbiyəsi və idmanın inkişafı gənclər və idman siyasətinin əsas səmərəlilik kriteriyaları kimi müəyyən edilmişdir. Tədqiqat nəticələri göstərir ki, Azərbaycan Respublikasında gənclər və idman siyasətinin səmərəliliyinin artırılması və meyarların dəqiq müəyyən edilməsi üçün dövlət siyasətinin gənclərə olan təsirləri müntəzəm olaraq izlənilməli və nəticələri qiymətləndirilməlidir.

**Açar sözlər:** *Sosial siyasət, gənclər və idman siyasəti, vətənpərvərlik, təhsil, məşğulluq.*

## Giriş

Sosial siyasət sosial proseslər və insanlar arasındakı münasibətlər kompleksinin tənzimlənməsinə yönəlmiş dövlət tədbirlərindən ibarətdir. Ümumi anlamda sosial siyasət dövlətin ümumi rifah vəziyyətinə nail olmaq üçün gəlirlərin bölüşdürülməsinə yönəlmiş fəaliyyət prinsiplərini və praktiki icra imkanlarını özündə birləşdirir. Sosial-demoqrafik kateqoriyalar və obyektlər üzrə sosial siyasət bir neçə istiqamətə ayrılır. Bunlara ailə ilə bağlı sosial siyasət, əlillərlə bağlı sosial siyasət, uşaqlarla bağlı sosial siyasət, eləcə də son illərdə daha da aktual xarakter alan gənclərlə bağlı sosial siyasət daxildir. Bu istiqamət bir çox ölkələrdə adətən gənclər siyasəti adlanmaqdadır [6].

Dövlətin həyata keçirdiyi gənclər siyasəti əsas etibarilə vətəndaş cəmiyyəti institutları və vətəndaşlarla qarşılıqlı əlaqə əsasında həyata keçirilən normativ-hüquqi, maliyyə-iqtisadi, təşkilati-idarəetmə, kadr və elmi xarakterli tədbirlər sistemindən ibarətdir. Gənclər siyasəti 2016-cı ilin göstəricilərinə əsasən dünyanın 131 ölkəsində həyata keçirilməkdədir [13]. Finlandiya, Böyük Britaniya, Almaniya, İsveç kimi inkişaf etmiş ölkələr gənclər siyasətinin reallaşdırılmasında önə çıxan ölkələr sırasındadır. Azərbaycan da gənclər siyasətinin həyata keçirilməsi sahəsində 30 ildən çox zəngin təcrübəyə malikdir. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün onun siyasi kursunun uğurlu davamçısı olan Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir və artıq Azərbaycan gəncləri ölkənin maddi-mənəvi tərəqqisinin hərəkətverici qüvvəsi kimi çıxış edirlər. Bu isə gənclər siyasətinin səmərəliliyinin qiymətləndirilməsi və səmərəlilik meyarlarının müəyyənləşdirilməsi ilə bağlı elmi tədqiqatların aparılmasını zəruri edir.

## Əsas hissə

Sosial siyasətin səmərəliliyi cəmiyyətin və dövlətin bütün sahələrinin xüsusilə də iqtisadi sahədə xalqın rifahını yüksəltmək, fərdi və cəmiyyəti inkişaf etdirmək bacarığı kimi müəyyən edilir. Daha dar mənada təsirli, nəticəli, məqsədli şəkildə reallaşdırılan dövlət siyasəti kimi başa düşmək olar. Bu qeyd olunanlar əsasında biz gənclər siyasətinin səmərəliliyini fəaliyyət nəticələrinin qarşıya qoyulan məqsədlərə uyğunluq səviyyəsi kimi müəyyən edə bilərik.

İlkin olaraq gənclər siyasətinin səmərəliliyini müəyyən etmək üçün onu ölçməyə imkan verən göstəricilər müəyyən edilməlidir. Belə ki, gənclər siyasətini həyata keçirən hər bir ölkə öz sosial-iqtisadi şəraitə uyğun olaraq milli gənclər siyasətinin başlıca istiqamətlərini və xüsusiyyətlərini təyin edir. Yəni ölkələrin milli gənclər siyasətləri olduqca bir-birindən fərqlənirlər. Bu səbəbdən, gənclər siyasətinin sosial göstəricilərinin, indekslərinin və meyarlarının vahid tərifi mövcud deyil, həmçinin bəzi sosial göstəricilər birbaşa ölçüləbiləndir ki, bunlara təhsil, məşğulluq, cinayət, narkomaniya kimi göstəriciləri aid etmək olar. Lakin bəzi tədbirlərin səmərəliliyini müəyyən edən göstəriciləri və kəmiyyət meyarlarının seçilməsi qeyri-mümkündür. Bura gənclərin mənəvi inkişafı, sosial məsuliyyəti, psixoloji yetkin səviyyəsi və s. aid edilir.

Gənclər siyasəti üzrə məşhur tədqiqatçı F.Denstad bildirir ki, “səmərəli gənclər siyasəti aydın və dəqiq strategiya şəklində ifadə olunan, gənc nəslin real problemlərini və ehtiyaclarını düzgün şəkildə təhlil edən və onlara cavab verən, konkret məqsəd

və hədəflər müəyyənləşdirən və müəyyən edilmiş bu məqsədlərə nail olmaq üçün mümkün qədər effektiv tədbirlər reallaşdıran siyasətdir". Lakin effektiv tədbirlərin həyata keçirilməsi üçün gənclər siyasəti bir sıra xüsusiyyətlərə və mexanizmlərə malik olmalıdır [11, s. 15].

Bura aiddir:

- Ölkənin milli şəraitinə və sosial-iqtisadi inkişaf potensialına uyğun olaraq gənclik anlayışı və müxtəlif sosial xüsusiyyətlərə malik olan gənclik qrupları müəyyənləşdirilməlidir;
- Gənclərin ehtiyac və gözləntiləri nəzərə alınmalı, onların əsasında gənclər siyasəti formalaşdırılmalı, həyata keçirilməsi üçün zəruri qanunvericilik və inzibati mexanizmlər müəyyən edilməli, resurslar ayrılmalı və məsul qurumlar dəqiqləşdirilməlidir;
- Mövcud milli siyasətin gənclər siyasətinə təsir göstərən elementləri təhlil olunmalı, konstitusiya, qanunvericilik, inkişaf strategiyaları, sahəvi siyasətlər və beynəlxalq hüquqi sənədlərlə uyğunluq təmin edilməlidir;
- Gənclərlə bağlı dövlət və qeyri-hökumət proqramları qiymətləndirilməli, onların resurs potensialı və əhatə dairəsi müəyyən edilməli, proqramlardan faydalanan gənclərin payı və kateqoriyaları təhlil olunmalıdır;
- Hazırlanan siyasət hökumət tərəfindən qəbul edilməli və qanunverici orqan tərəfindən rəsmi şəkildə təsdiqlənməlidir;
- Siyasət sənədləri və əlaqəli məlumatlar geniş ictimaiyyətə çatdırılmalı, gənclər və cəmiyyətin digər qrupları bu siyasətin məqsəd və vəzifələri barədə məlumatlandırılmalıdır;
- Gənclər siyasətinin milli inkişaf planlarına inteqrasiyası təmin edilməli, əlaqəli fəaliyyətlərin koordinasiyası üçün institusional mexanizmlər yaradılmalıdır;
- Siyasətin icrası zamanı gənclərin davamlı iştirakı təmin edilməli, proqramların idarə olunması və nəticələrinin qiymətləndirilməsi səmərəli şəkildə həyata keçirilməlidir;
- Milli gənclər siyasəti mütəmadi olaraq monitorinq edilməli, qiymətləndirilməli və dəyişən tələblərə uyğun olaraq yenilənməlidir [11, s. 14-19; 16, s. 7-13].

H. Cəfərovun "Azərbaycanda gənclər hərəkatı (XX əsr)" [4] və R. Hacıyevin "Azərbaycan gəncliyinin himayədarı (Heydər Əliyevin gənclər siyasəti (1993–2003))" [5] monoqrafiyalarının təhlili əsasında demək olar ki, yuxarıda qeyd olunan mexanizmlər mərhələli şəkildə Azərbaycanın milli gənclər siyasətində formalaşdırılmışdır və günümüzdə də uğurla tətbiq edilməkdədir. Bu baxımdan, ölkədə aydın və konkret hədəfləri olan gənclər siyasəti mövcuddur. Son illərdə ardıcıl dövlət proqramlarının qəbulu, infrastrukturun təkmilləşdirilməsi və bu sahəyə ayrılan maliyyə vəsaitinin artırılması daha effektiv tədbirlərin həyata keçirilməsinə geniş imkanlar yaradır.

İnkişaf etmiş bir sıra ölkələr, eləcə də Birləşmiş Millətlər Təşkilatı və Beynəlxalq Əmək Təşkilatı (BƏT) kimi beynəlxalq qurumlar təhsil almayan və işləməyən gənclərin (NEET) göstəricilərini gənclər siyasətinin əsas səmərəlilik meyarlarından biri kimi müəyyən edirlər. NEET kateqoriyasının əsas meyarı fərdlərin təhsil sistemindən kənarda qalması və məşğulluqda iştirak etməməsidir. NEET anlayışı ilə bağlı ölkələr arasında müxtəlif yanaşmalar mövcuddur ki, bu da əsasən gənclərin yaş aralığının müəyyənləşdirilməsi ilə bağlıdır [8, s. 56]. BƏT-in standart tərifinə görə, NEET gənclər kateqoriyası 15–24 yaş arası gənclər üçün ölçmə meyarıdır. BƏT-in 2023-cü il statistikasına əsasən, dünyada gənclərin təxminən 20%-i NEET qrupuna daxildir [5, s. 14]. Lakin bəzi elm adamları NEET kimi qruplaşdırmanın siyasi diskursda iştirak etməməni fərdiləşdirdiyi və gənclərin üzləşdiyi əsas problemlərin diqqətdən kənarda qalmasına səbəb olduğunu bildirirlər.

Azərbaycanda təhsil və məşğulluq kontekstində NEET gənclər nisbətən yeni bir anlayışdır. "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına istinadən, 2018-ci ildə Azərbaycanda NEET gənclərin səviyyəsi 23% təşkil etmiş, bu göstəricinin 2030-cu ilədək 15%-ə endirilməsi hədəflənmişdir. Azərbaycanda NEET qrupuna 14–29 yaş arası təhsil almayan və işləməyən gənclər aid edilir. Gənc nəsil arasında NEET səviyyəsinin 20%-dən yüksək olması ölkənin yerli gənclər icmasının kövrəkliyinə dair ciddi xəbərdaredici meyillər ortaya qoyur [11]. Mövcud vəziyyət xüsusilə ona görə narahatedicidir ki, müxtəlif tədqiqatlar NEET gənclərin yoxsulluq, marjinallaşma və sosial kənarlaşdırılma risklərinə daha çox məruz qaldığını, eyni zamanda zəif təhsil səviyyəsi və sosial şəbəkələrin məhdudluğu səbəbindən bu riskləri azaltmaq imkanlarının kifayət qədər olmadığını göstərmişdir. NEET gənclərin cinayətkarlıq və narkotik maddələrdən istifadə kimi riskli davranışlara daha çox meyilli olduqları müxtəlif tədqiqatlarda qeyd olunur [4, s. 3]. Buradan belə nəticə çıxarmaq olar ki, ölkədə NEET gənclərin səviyyəsinin yüksək olması bir sıra mənfi sosial halların baş vermə ehtimalını artıra bilər.

Azərbaycan gənclərinin təhsil göstəricilərinin təhlili müsbət tendensiyaların mövcud olduğunu göstərir. 2019/2020-ci tədris ilinin əvvəlinə olan məlumata əsasən, 59 orta ixtisas təhsil müəssisəsində 56 min tələbə təhsil alırdısa, 2024/2025-ci tədris ilində 63 orta ixtisas təhsil müəssisəsində bu göstərici 63 min tələbəyə çatmışdır. Ali təhsil müəssisələrində isə daha yüksək artım tendensiyası müşahidə olunur. Belə ki, 2019/2020-ci tədris ilində 62 ali təhsil müəssisəsində 187 min tələbə təhsil alırdısa, 2024/2025-ci tədris ilində tələbələrin sayı 264 minə yüksəlmişdir. Bu göstəricilər üzrə tələbələrin sayının böyük əksəriyyəti gənclərin payına düşür. Lakin gənclər arasında təhsil məsələləri ilə bağlı aparılan sorğular göstərir ki, respondentlərin cəmi 10%-i əmək bazarında aldıqları təhsilə uyğun iş tapa biləcəklərinə inanır [12].

İşsizlər arasında gənclərin payının yüksək olması əmək bazarında mövcud olan əsas problemlərdən biridir. COVID-19 pandemiyası dövründə gənclər arasında işsizlik səviyyəsi xüsusilə yüksək həddə çatmışdır. Son illərdə isə gənclər arasında işsizlik səviyyəsinin nisbətən azaldığı müşahidə olunur. Lakin hazırda əmək bazarına daxil olan gənclərin sayında ciddi azalma qeydə alınır. Bunun əsas səbəbi təhsillə əlaqədardır. Gənclər arasında məşğul əhalinin 20,8%-i ali təhsilli, 11,0%-i orta ixtisas təhsilli, 3,9%-i peşə-ixtisas təhsilli, 64,9%-i isə orta və ibtidai təhsillidir [12]. Buradakı problem əsasən ondan ibarətdir ki, işsiz və işaxtaran gənclərin peşə-ixtisas hazırlığı və bacarıqları müasir əmək bazarının tələblərinə tam cavab vermir.

Əksər tədqiqatçılar gənclər siyasətində səmərəliliyi subyektlə müqayisədə obyektə üstünlük verməkdə görürlər. Yəni gənclər siyasətinin məhz gənclərin yüksək iştirakçılığı ilə özləri tərəfindən həyata keçirilməsi onun effektivliyini artırır. Demək olar ki, bütün ölkələrdə gənclərin iştirakçılığı gənclər siyasətinin prioritet istiqamətlərindən biri hesab olunur. İştirakçılıq anlayışı "fəal şəkildə daxil olma" və ya "aktiv şəkildə proseslərdə iştirak etmə" mənasını ifadə edir. Gənclərin iştirakı siyasi fəaliyyət üçün sosial və şəxsi bacarıqları inkişaf etdirir, eləcə də demokratik münasibətləri və bacarıqları yetkinləşdirir.

İştirakçılıq anlayışı gənclər siyasətində müxtəlif mənalarda istifadə olunur. Walther iştirakçılığın dörd əsas növünü müəyyən etmişdir.

Bura aiddir:

1) Siyasi iştirak - əsasən seçki fəallığının azalması kontekstində müzakirə olunur;

2) Təhsil və təlimdə iştirak - gənclərin müvafiq təhsil və təlim institutlarında qeydiyyatda olmasını ifadə edir;

3) Gənclərlə iş sahəsində iştirak - gənclərin tanınmış və legitim formada iştirak edə bilmələri üçün zəruri bacarıq və səriştələrə malik olmamaları fikrinə əsaslanır və daha çox gələcəyə yönəlmiş yanaşmanı əks etdirir;

4) Sosial iştirakı - assosiasiyalarda, könüllü fəaliyyətlərdə, gənclərlə iş üzrə tədbirlərdə və gənclər şuralarında iştirak etməklə xarakterizə olunur [10, s. 9].

Siyasi iştirak dedikdə, siyasi sistemdə cəmiyyəti bağlayıcı qərar vermək səlahiyyətinə malik olan institutların qərarlarına təsir göstərmək məqsədini daşıyan fəaliyyətlər nəzərdə tutulur. Siyasi iştirakın müxtəlif formaları və mexanizmləri mövcuddur. Bunların başında seçkilərdə iştirak etmək dayanır. Ardınca isə siyasi vəzifələrə namizəd olmaq, siyasi partiyaya üzv olmaq, siyasi müzakirələrdə və siyasi kampaniyalarda iştirak etmək, eləcə də hökumət və aktual hadisələrə maraq göstərmək kimi fəaliyyətlər gəlir.

Azərbaycanda gənclərin siyasi iştirakı ilə bağlı aktual statistik göstəricilər mövcud olmasa da, elmi ədəbiyyatlardan keçmiş illərə dair müəyyən məlumatlar əldə etmək mümkündür. 2004-cü il bələdiyyə seçkilərində gənclər bələdiyyələrin tərkibində 2–2,5 faiz təmsil olunurdusa, 2009-cu il seçkilərində onların təmsilçilik faizi 27%-ə çatmışdır. Bu, gənclərimizin ictimai fəallığının artmasından irəli gəlir. Azərbaycanda gənclər dövlət orqanlarında, parlamentdə və bələdiyyələrdə aktiv şəkildə fəaliyyət göstərir və cəmiyyətin inkişafına öz töhfələrini vermək imkanına malikdirlər. 2011-ci ildə dövlət orqanlarında işə qəbul olunan əməkdaşların 60%-dən çoxunu gənc kadrlar təşkil etmişdir; bələdiyyə üzvlərinin isə 28%-i (4303 nəfər) gənclərdən ibarət olmuş, onlardan 326 nəfəri bələdiyyə sədridir [2]. Lakin tədqiqatçılar son illərdə gənclərin ənənəvi siyasi iştirak formalarından uzaqlaşdığını və daha çox sosial iştiraka meyilli olduqlarını bildirirlər.

Sosial iştirak əsasən könüllü fəaliyyətə söykənir. Hazırda Azərbaycanda 270-dən çox gənclər təşkilatı fəaliyyət göstərir və gənclər bu təşkilatlarda könüllü şəkildə iştirak edirlər. Gənclər təşkilatları vətəndaş cəmiyyəti institutları kimi gənclər siyasətinin həyata keçirilməsində demək olar ki, dövlət institutları ilə eyni dərəcədə mühüm rola malikdirlər. Gənclər təşkilatları müxtəlif istiqamətlərdə fəaliyyət göstərərək gənclərin sosial-iqtisadi inkişafına təsir göstərir, eyni zamanda onların cəmiyyətin ictimai həyatına inteqrasiyasını təmin edirlər.

Gənclərin iştirakçılığının artırılmasında əsas məqsədlərdən biri onlarda fəal vətəndaş mövqeyinin

formalaşdırılmasıdır. Bu isə birbaşa vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev vətəndaşlıq və vətənpərvərlik tərbiyəsini Azərbaycanın gənclər siyasətinin başlıca istiqamətlərindən biri kimi müəyyən etmiş və bu yanaşma müasir mərhələdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müxtəlif tədbirlərdə və dövlət proqramlarında öz əksini tapmışdır. Gənclərin qarşısında duran əsas vəzifələrdən birinin mənəvi tərbiyə məsələsi olduğunu vurğulayan Heydər Əliyev Azərbaycan xalqının milli və mənəvi dəyərlərinin dərindən mənimsənilməsinin vacibliyini qeyd etmiş və göstərmişdir ki, milli dəyərlərimizi, milli ənənələrimizi, dinimizi və tariximizi yaxşı bilməyən gənc əsl vətənpərvər ola bilməz [3, s. 367].

Əvvəldə də qeyd etdiyimiz kimi, gənclərin mənəvi inkişafının kəmiyyət göstəriciləri ilə qiymətləndirilməsi qeyri-mümkün olsa da, 44 günlük Vətən müharibəsində iştirak edənlərin böyük əksəriyyətini gənclər təşkil etmişdir. Gənclərin ölkənin ərazi bütövlüyünün bərpası uğrunda göstərdikləri qəhrəmanlıq və şücaət dövlət gənclər siyasətinin bu istiqamətdə səmərəliliyinin yüksək olmasının mühüm göstəricisi kimi qiymətləndirilə bilər.

Bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da idmanın inkişafı və idmana yönəlik dövlət siyasəti gənclər siyasəti ilə vahid strategiya çərçivəsində həyata keçirilir. Sosial mühitin mühüm sahələrindən biri olan bədən tərbiyəsi və idman insanların həm fiziki, həm də mənəvi inkişafının təmin edilməsinə xidmət etməklə ölkənin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır [1, s. 3]. İdman siyasətinin sistemli şəkildə həyata keçirilməsi gənclərə və cəmiyyətə geniş spektrdə faydalar təmin edə bilər. İdman siyasətinin əsas məqsədi xüsusilə məktəbəqədər yaşlı uşaqlar, gənclər, qadınlar və qızlar, yaşlılar, əlilliyi olan şəxslər üçün idmanın əlçatan olmasıdır. Bundan əlavə, idman artıq "yumşaq güc" vasitəsi kimi ölkələrin beynəlxalq münasibətlərinə təsir göstərməkdədir. Elmi ədəbiyyatlarda bu "idman diplomatiyası" adlanır.

Daim bədən tərbiyəsi və idmanın inkişafını diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "Olimpiya oyunları yeganə yarışdır ki, ölkələr öz aralarında açıq şəkildə rəqabət aparırlar. Digər sahələrdə rəqabət özünü o qədər də büruzə vermir. Məsələn, əgər biz müxtəlif ölkələrin iqtisadiyyatına nəzər salsaq, demək çox çətindir ki, hansı daha qabaqdadır. Yaxud da digər sahələrdə. Amma idmanda hər şey açıq-aydın görünür. Olimpiya Oyunları təkcə idman yarışı deyil, həm də böyük siyasətdir" [8, s. 159].

Hazırda Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında aşağıdakı müsbət meyillər yaranmışdır:

- İdmana investisiya qoyuluşunun artırılması, müntəzəm olaraq idman tədbirlərinin həyata keçirilməsi üçün maddi-texniki bazanın yaradılması;
- Regionlarda idman infrastrukturunun inkişafı, müasir tələblərə cavab verən Olimpiya Komplekslərinin tikilməsi;
- İdman təşkilatlarının, assosiasiyaların və federasiyaların fəaliyyətlərinin genişləndirilməsi;
- İdmanın normativ-hüquqi bazasının təkmilləşdirilməsi və ardıcıl dövlət proqramlarının qəbul edilməsi;
- Sosial cəhətdən həssas və əlilliyi olan gənclərin idmana cəlb edilməsi üçün şəraitin yaradılması;
- İdman sahəsində beynəlxalq əlaqələrin gücləndirilməsi, Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, III MDB Oyunları kimi beynəlxalq idman yarışlarının ölkədə keçirilməsi və Azərbaycanın idman oyunlarının mərkəzinə çevrilməsi [7, s. 34].

İnkişafa baxmayaraq, müəyyən problemlər hələ də qalmaqdadır. Bunlar aşağıdakılardır:

- Kənd yerlərində idmanın maddi-texniki bazasında həlli tapılmamış bir sıra problemlər qalmaqdadır; infrastruktur yenilənməlidir.
- Yaşadığımız rəqəmsallaşma dövründə idman internet resurslarında kifayət qədər təşviq edilmir.
- Müasir Olimpiya Komplekslərinin sayı artsa da, gənclər bununla bağlı maarifləndirilmir.
- Məktəblərdə və ali təhsil müəssisələrində idman infrastrukturu ciddi yeniləməyə ehtiyac duyur; xüsusilə tələbələrin bir çoxu idmana bu yolla cəlb edilə bilər.
- Bir sıra peşəkar idman növləri üzrə Azərbaycan idmançıları zəif nəticələr göstərməkdədir; bunlar daha çox qrup şəklində olan idman növləridir.
- İstehsalat kollektivlərində, eləcə də onların yaşayış yerlərində əhalinin müntəzəm bədən tərbiyəsi və idman tədbirlərinə geniş cəlb edilməsi istiqamətində məqsədyönlü iş aparılmır.

**Nəticə**

Tədqiqat göstərir ki, gənclər və idman siyasətinin səmərəliliyinin müəyyən edilməsi üçün universal kriteriyaların olmaması, hər bir ölkədə dövlət siyasətinin əsas istiqamətləri və xüsusiyyətlərinə uyğun meyarların müəyyən edilməsini zəruri edir. Azərbaycanda ilkin olaraq gənclərin vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi, təhsil və məşğulluq imkanları, xüsusilə bədən tərbiyəsi və idmanın inkişafı, gənclər və idman siyasətinin başlıca səmərəlilik kri-

teriyaları hesab oluna bilər. Səmərəliliyin dəqiq və düzgün qiymətləndirilməsi üçün isə bu istiqamətlərdə həyata keçirilən fəaliyyətlər və onların gənclərə təsiri müntəzəm olaraq yoxlanılmalı və nəticələri qiymətləndirilməlidir. Beləliklə, nəzəri və empirik tədqiqatlara əsaslanaraq, gələcəkdə gənclər və idman siyasətinin səmərəliliyini daha da artırmaq mümkündür.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Aslanlı, G.M. Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti (2003–2013-cü illər): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / Bakı, 2018. – 28 s.*

*2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Gəncliyi Statistik Məcmuəsi,– 2025 – 133 s. [Electronic resource] - URL: https://www.stat.gov.az/*

*3. Azərbaycanın ictimai həyatında gənclərin rolu / A. M. Cəfərovun, E. B. İmaməliyevin redaktəsi ilə. – SPb.; Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. – 2012. – 100 s.*

*4. Cəfərov, H. Azərbaycanda gənclər hərəkatı (XX əsr). Monoqrafiya / H. Cəfərov. – Bakı: Nurlan, – 2009. – 457 s.*

*5. Hacıyev, R.B. Azərbaycan Gəncliyinin Himayədarı (Heydər Əliyevin gənclər siyasəti (1993-2003-cü illər)) / R.Hacıyev. – Bakı: Aspoliqraf, - 2014. – 232 s.*

*6. Məmmədova, S. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri / S. Məmmədova. – Bakı: Avropa nəşriyyatı, – 2017. – 232 s.*

*7. Quliyev, D.Q. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi. Dərslik / D.Q.Quliyev – Bakı: RİZA, – 2004, – 304 s.*

*8. Quliyev, D.Q. Müstəqil Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı (1991-2011). Dərslik / D.Q. Quliyev – Bakı: Mütərcim, – 2012. – 216 s.*

*9. Şahin, M. Ne Eğitimde Ne İstihdamda Olan Gençlerin (NEET) Yaşam Deneyimleri: Zorluklar Gereksinimler ve Beklentiler / M.Şahin, G.Boduroğlu // Gençlik Araştırmaları Dergisi, – 2025. 13(35) – s. 54–68.*

*10. 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 30 oktyabr 2018-ci ildə qəbul edilmişdir (29 noyabr 2019-cu il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Xalq, – 2019 – 18 s.*

*11. Denstad, F. Youth Policy Manual / F.Denstad. – Strasbourg: Council of Europe Publishing, – 2009. – 94 p.*

*12. İnternational Labour Organization: Global Employment Trends for Youth 2024. / Geneva: İLO, – 2024, – 116 s.*

*13. Valiyev, A. Azerbaijani youth in transition: Is the state youth policy effective enough? / A.Valiyev, A.Babayev // Journal of Eurasian Studies, – 2021. 0. – s. 1-10.*

*14. Walther, A. Youth Transitions, Youth Policy and Participation. Research Project / A. Walther. – Tübingen, – 2002 – 65 s.*

*15. Youth and İnequality, Oxfam Briefing Paper, – 2016 – 40 s. [Electronic resource] - URL: https://www.oxfamitalia.org/wp-content/uploads/2016/08/bp-youth-inequality-global-120816-embargo-en-final.pdf*

*16. Youth policy formulation manual (excerpts) / ed. İnternational Council on National Youth Policy – New York: United Nations Publications, – 2009. – 15 p.*


## EFFICIENCY CRITERIA OF YOUTH AND SPORTS POLICY IN THE REPUBLIC OF AZERBAIJAN


**Khalil Toghrul Yusifli**
***Ganja State University, doctorant***



### SUMMARY

The article examines the efficiency criteria and key indicators of youth and sports policy as a component of social policy in the Republic of Azerbaijan. Due to the absence of universal indicators and indices in youth and sports policy, the main efficiency criteria in Azerbaijan have been identified based on the key directions and specific features of this policy, including the civic and patriotic education of young people, educational and employment opportunities, and particularly the development of physical education and sport. The research findings indicate that, in order to enhance the effectiveness of youth and sports policy in the Republic of Azerbaijan and to clearly define its criteria, the impact of state policy on young people should be regularly monitored and its outcomes systematically evaluated.



**Keywords:** *Social policy, Youth and sports policy, Patriotism, Education, Employment.*

# КРИТЕРИИ ЭФФЕКТИВНОСТИ МОЛОДЕЖНОЙ И СПОРТИВНОЙ ПОЛИТИКИ В

**Халил Тогрул Юсифли**
***Гянджинский Государственный Университет, докторант***

**РЕЗЮМЕ**

В статье рассматриваются критерии эффективности и ключевые показатели молодежной и спортивной политики как составной части социальной политики в Республике Азербайджан. В связи с отсутствием универсальных показателей и индексов в молодежной и спортивной политике, в Азербайджане основные критерии эффективности были определены на основе ключевых направлений и специфических особенностей данной политики, включая гражданское и патриотическое воспитание молодежи, возможности в сфере образования и занятости, а также, в особенности, развитие физического воспитания и спорта. Результаты исследования показывают, что для повышения эффективности молодежной и спортивной политики в Республике Азербайджан и четкого определения ее критериев необходимо регулярно осуществлять мониторинг воздействия государственной политики на молодежь и систематически оценивать полученные результаты.

**Ключевые слова:** *социальная политика, молодежная и спортивная политика, патриотизм, образование, занятость.*

*Rəyçi: Siyasi elmlər doktoru Həbibova Z.Z.*
*Məqalə redaksiyaya daxil olub: 17.03.2026*
*Çapa qəbul olunub: 18.04.2026*

*The date of the admission of the article to the editorial office: 17.03.2026*
*Accepted for publication: 18.04.2026*